UOT 94(479.24); UOT 510

CƏMİL QULİYEV

tarix üzrə fəlsəfə doktoru,
AMEA Lənkəran Regional Elmi Mərkəzinin elmi katibi,
AMEA A.A.Bakıxanov adınaTarix və Etnologiya İnstitutu
ORCİD:0009-0006-8736-0667
qcamil@mail.ru

MİLLİ QURTULUŞ AMALLI QAYIDIŞ

DOI: https://doi.org/10.36719/2708-065X/111/107-113

"*Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır!*"
Heydər Əliyev

Məqalədə milli birliyimizin müdafiəsi, müqəddəs azərbaycançılıq ideologiyası, demokratik Azərbaycan dövlətini layiqli şəkildə gələcək nəsillərə ötürülməsi qeyd edilir. Mətndə xalqımızın çağdaş tarixində yaddaqalan, milli dövlətçilik və siyasi tariximizə şanlı səhifələr yazan dönəmlərdən: 14 iyul 1969–cu il, 21 noyabr 1992–ci il, 15 iyun 1993–cü il aşağıdakı formada bəzi mülahizələrlə öz əksini tapmışdır.

1) Tarix doğma Azərbaycanımıza rəhbərlik edən, dahi şəxsiyyət, fenomenal dövlət adamı, müdrik siyasətçi Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəldiyi gün;

2) Müstəqil Azərbaycan dövlətini parçalanmaqdan, siyasi səhnədən çəkilmək qorxusundan, müstəqilliyini itirmək təhlükəsindən qoruyub saxlamağa, dövlət müstəqilliyinin əbədiliyini, sarsılmazlığını, dönməzliyini təmin etməyi özünün ən ali məqsədi elan etmiş Yeni Azərbaycan Partiyasının möhtərəm Heydər Əliyevin rəhbərliyi ilə yarandığı gün;

3) Xalqın təkidli tələbi ilə Azərbaycanda yenidən hakimiyyətə gələn xalqımızın qeyrətli oğlu, alovlu vətənpərvər, böyük öndər Heydər Əliyevin xilaskar missiyalı, milli qurtuluş amallı qayıdışının, müstəqil Azərbaycan dövlətinin, milli dövlətçiliyin aydın sabahına təminatın verdiyi Milli Qurtuluş günü kimi çağdaş milli tariximizə qızıl hərflərlə qeyd olunub.

Açar sözlər: Heydər Əliyev, şəxsiyyət, milli, lider, dövlətçilik, azərbaycanlı.

Giriş. Çöxəsrlik dövlətçilik tarixinə malik olan Azərbaycan xalqı hər zaman özünün parlaq dühaları, mütəfəkkirləri, dövlət xadimləri ilə haqlı olaraq fəxr edir. Zamanın mürəkkəb tarixi–siyasi sınaqlarından öz fitri istedadı, siyasi fəhmi və dəmir iradəsi ilə uğurla çıxaraq xalqını müstəqilliyə qovuşdurmuş Heydər Əliyev məhz belə qüdrətli şəxsiyyətlərdəndir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə dahi Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Ulu Öndər Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısında xidmətləri misilsizdir. Xalqımızın çağdaş tarixində yaddaqalan, milli dövlətçilik və siyasi tariximizə şanlı səhifələr yazan dönəmlərdən 14 iyul 1969-cu il, 21 noyabr 1992-ci il, 15 iyun 1993-cü il tarixlərini yada salmaq yerinə düşərdi. Birinci tarix doğma Azərbaycanımıza rəhbərlik edən, dahi şəxsiyyət, fenomenal dövlət adamı, müdrik siyasətçi, Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəldiyi gün, ikincisi, müstəqil Azərbaycan dövlətini parçalanmaqdan, siyasi səhnədən çəkilmək qorxusundan, müstəqilliyini itirmək təhlükəsindən qoruyub saxlamağa, dövlət müstəqilliyinin əbədiliyini, sarsılmazlığını, dönməzliyini təmin etməyi özünün ən ali məqsədi elan etmiş Yeni Azərbaycan Partiyasının möhtərəm Heydər Əliyevin rəhbərliyi ilə yarandığı gün, nəhayət, üçüncüsü, xalqın təkidli tələbi ilə Azərbaycanda yenidən hakimiyyətə gələn xalqımızın qeyrətli oğlu, alovlu vətənpərvər, böyük öndər Heydər Əliyevin xilaskar missiyalı, milli qurtuluş amallı qayıdışının, müstəqil Azərbaycan dövlətinin, milli dövlətçiliyin aydın sabahına təminatın verdiyi Milli Qurtuluş günü kimi çağdaş milli tariximizə qızıl hərflərlə yazılıb. Bu dövrdə Azərbaycan müstəqilliyini itirmək təhlükəsi, ölkəmiz parçalanmaq qorxusu ilə, millətimiz vətəndaş müharibəsi ilə üzləşmiş, vətənimiz "olum, ya ölüm" dilemması qarşısında qalmışdı (13, s.51).

Tariximiz. Müasir müstəqil Azərbaycan dövləti hazırki inkişaf mərhələsinə asan yolla çatmayıb. Tarixin müxtəlif dönəmlərində ayrı–ayrı problemlər və situasiyalarla qarşılaşan Azərbaycan

xalqı əzmkarlıq və birlik nümayiş etdirərək dövlətçilik ənənələrimizin əbədiliyini, müstəqil Azərbaycanın tərəqqisini təmin etmişdir. Şübhəsiz, bütün bu tarixi və misilsiz nailiyyətlərin əldə edilməsində lider faktoru əvəzolunmaz rol oynamışdır. Tarix şəxsiyyətlər yetişdirir. Şəxsiyyətlər də tarix yaradır. Dühalar isə doğulur. Onların missiyaları xilaskarlıq olur – tarixin, dövlətin və millətin xilaskarlıq missiyası. Ümummilli Liderimiz müstəqil və sabit inkişaf edən müasir Azərbaycan dövlətini yaratmaqla yanaşı xalqımız, dövlətimiz qarşısında daha bir əvəzsiz xidmət göstərib milli dövlətçilik məktəbi formalaşdıraraq xalqımızın gələcək inkişafını təmin edəcək layiqli siyasi varis yetişdirib. Azərbaycan xalqının dəyərli oğlu, böyük şəxsiyyət, əbədiyaşar lider haqqında danışmaq bir azərbaycanlı kimi həm şərəfdir, həm də çətindir. Yəni, sözün çəkisi Heydər Əliyev dühasına, böyüklüyünə və şəxsiyyətinə uyğun gəlməlidir. Nəzərə alsaq ki, o, bu xalqın əziz övladı, rəhbəri, dövlətimizin qurucusu olmaqla yanaşı hər bir azərbaycanlının havadarı, Azərbaycan kəlməsinin ən böyük təbliğatçısı idi. O, xalq sevgisilə yaşayan, böyük olduğu qədər də sadə bir insan idi. Heydər Əliyev həyatının bütün mərhələlərində dünyagörüşünü genişləndirmiş, təfəkkür tərzini dərinləşdirmiş, iş təcrübəsini püxtələşdirmiş, yaddaşını cilalamış və həyatının yeni mərhələsində özünü uçuş platformasında möhkəm dayanmaq üçün hazırlamışdır (9, s.83).

Azərbaycan Xalq Cumhuriyyəti 1918–ci ildə Şərqin ilk demokratik dövlətini quraraq I Dünya müharibəsi, Rusiyada baş verən inqilab, Cənubi Qafqaz, xüsusilə, Azərbaycan və onun nefti uğrunda gedən mübarizələr AXC–nin möhkəmlənməsinə imkan verməmişdir. Bu dövlətin yenidən bərpası üçün biz 70 il gözləməli olduq. Nəhayət, Azərbaycan xalqı iradəsinin hökmü ilə ötən əsrin 90–cı illərində dövlət müstəqilliyini bərpa etdi. Azərbaycanın tarixində yeni bir mərhələ başladı. Xalqımızın həyatında mühüm əhəmiyyət kəsb edən bu hadisə tariximizin ən şərəfli dövrünə çevrildi. Ulu Öndərimiz Heydər Əliyevin qüdrətilə dövlət müstəqilliyimiz möhkəmləndi. Milli dövlətçilik tariximizdə xüsusi əhəmiyyətə malik olan 1991–ci ildə qazanılmış suverenliyə yaşam və əbədilik haqqını verən məhz 1993–cü il oldu. Buna görə də hər iki tarix bizim üçün əhəmiyyətlidir. O hələ sovet Azərbaycanının rəhbəri olduğu vaxtlarda respublikamızda milli şüurun inkişafına, xalqımızın tarixi adət–ənənələrinə və milli–mənəvi dəyərlərinin qorunmasına xüsusi diqqət yetirmişdi. Heydər Əliyevin 1969-cu ildə hakimiyyətə gəlişi Azərbaycanda milli özünüdərk prosesinə təkan verdi. Respublikanın vətənpərvər rəhbəri hər bir addımı ilə Azərbaycan cəmiyyətinə əsl nümunə göstərir, rəsmi tədbirlərdə öz doğma ana dilində çıxış edirdi. Bu da o dövrlərdə xalqın tarixi köklərinə qayıdışı və milli–mənəvi dəyərlərinə bağlılığını rəsmi səviyyədə nümayiş etdirən, milli şüurun oyanışına ciddi təsir edən hadisə kimi qarşılanmışdı. Ölkənin ictimai-siyasi həyatında və dövlət idarəetmə strukturunda azərbaycanlı gənclərin fəal iştirakına şərait yaratmağa çalışmış, bu istiqamətdə mühüm əhəmiyyət kəsb edən tədbirlər həyata keçirmişdir. Böyük rəhbərin şəxsi təşəbbüsü ilə respublikamızdan minlərlə gənc Sovet İttifaqının ən nüfuzlu ali təhsil ocaqlarında təhsil almaq imkanı əldə etmişdi. Bu proses 1969–cu ildən 80–cı illərin sonuna qədər davam etdi. Həmin dövrdə ulu öndərin uzaqgörən siyasətilə gələcəyin, bu günkü yeni dövrümüzün müstəqil Azərbaycan Respublikasının iqtisadi və siyasi inkişafında müstəsna rol oynayan mükəmməl milli kadr potensialı formalaşmaqda idi. Azərbaycanlı gənclərin yüksək ixtisaslı kadrlar kimi yetişdirilməsi prosesi respublikamızın iqtisadi potensialının artırılmasına xidmət edir, xalqımızın ittifaq, həm də dünya miqyasında böyük nailiyyətlər əldə etməsinə zəmin hazırlayırdı. Sovet totalitar rejiminin ağır şərtləri altında yaşadığımız həmin dövrdə Heydər Əliyev xalqımızın milli mənlik uğrunda mübarizə aparan ziyalılarını represiyyalardan, dissidentlikdən xilas etdi (8, s.18).

O xalqın rifahını yaxşılaşdırmaq məqsədilə respublikanın iqtisadiyyatını inkişaf etdirmək, yeni ictimai-siyasi quruluş əsasında yaranan, lakin dərin iqtisadi böhran içində çırpınan, ədalətsiz müharibə məngənəsində sıxılan və dünyada təklənən bir dövlətə, hərc-mərclik dünyasında qanına qəltan olan bir ölkəyə Azərbaycan Respublikasına başçılıq etmək, onu parçalanmadan qoruyaraq ayağa qaldırmaq üçün vəziyyətdən çıxış yolları axtarmaq, yeni fikirlər irəli sürmək və bütün məqamlarda xalqa arxalanmaqdan ibarət olmuşdur. Heydər Əliyevdə təfəkkür tərzi yeni iş üsulu, səbr, dərin idrak, fikrindən dönməzlik, mürəkkəb, çoxşaxəli iş prosesində səhv etməmək vərdişini möhkəmlətməklə səciyyələnir. Dahi şəxsiyyətə xas olan müdriklik onun ən çətin və mürəkkəb vəziyyətdən çıxış yolu tapmasını şərtləndirmişdir. 1993–cü ilə qədər ümidsizlik şəraitindən çıxış yolu görməyən xalqın ümidgahı gəldi və ölkəmizin bütövlüyü üçün təhlükə qısa müddətdə aradan qaldırıldı, əmin–amanlıq

və sabitlik yarandı. Dövrümüzün görkəmli siyasətçisi, ümummilli lider Heydər Əliyev xaricdən gələn təhlükələri aradan qaldırmaq, müstəqilliyimizi, suverenliyimizi qoruyub saxlamaqdan ötrü ilk növbədə qonşu dövlətlərlə – İran, Rusiya, Gürcüstan, Qazaxıstan, Ukrayna və qardaş Türkiyə ilə əlaqələri bərpa və inkişaf etdirməyə üstünlük verdi (11, s. 88).

Onun layihəsi ilə 1994–cü il sentyabrın 20–də Bakıda Gülüstan sarayında Xəzərin Azərbaycan sektorundakı "Azəri", "Çıraq", "Günəşli" yataqlarının dərin su qatlarındakı neftin birgə işlənməsi haqqında "məhsulun pay bölgüsü" tipli müqavilə imzalandı. Müqavilə öz tarixi, siyasi və beynəlxalq əhəmiyyətinə görə "Əsrin müqaviləsi" adlanmış, təxminən 400 səhifə həcmində və 4 dildə öz əksini tapmışdır. "Əsrin müqaviləsi"ndə dünyanın 8 ölkəsinin (Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç, Yaponiya və Səudiyyə Ərəbistanı) 13 ən məşhur neft şirkəti (Amoko, BP, MakDermott, Yunokal, ARDNŞ, LUKoyl, Statoyl, Ekson, Türkiyə Petrolları, Penzoyl, İtoçu, Remko, Delta) iştirak etmişdir. Bununla da "Yeni neft strategiyası" və doktrinası uğurla həyata keçirilməyə başlandı və Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin çəkilişi reallaşdı. Azərbaycan getdikcə təhlükələrdən xilas oldu, möhkəmləndi, inkişafa başladı və ucaldı (6, s. 33).

İndi şərəfli tariximizə çevrilən 90–cı illəri xatırlayanda xalqımız həqiqətən çox çətin və ağır bir dövr yaşayıb. Milli iftixarımız olan Heydər Əliyevin Vətənə dönməsi, Naxçıvana getməsi xalqımızı böyük fəlakətdən xilas etdi. Heydər Əliyevin Naxçıvanda deputat seçilməsi, Ali Məclisin sədri kimi fəaliyyətə başlaması cərəyan edən hadisələrin inkişafına və səmtini dəyişməsinə ciddi təsir etdi. Vəziyyətin təhlükəli həddə çatdığı 1993–cü ildə azərbaycanlıların yeganə ümid yeri Heydər Əliyev idi. Onu digər şəxsiyyətlərdən fərqləndirən bir cəhət də bütün həyatı boyu xalqının dəstəyini qazanması, sevilməsi olmuşdur. Bu mənada Heydər Əliyev xoşbəxt insan idi. O, ölkədə əhali tərəfindən daim təqdir edilən, sevilən və dəyərləndirilən bir dövlət başçısı olmuşdur. Biz açıq söyləməliyik ki, Azərbaycan xalqı bütün dövrlərdə onu qorumuş və sevmişdir (3, s. 6–7).

Heydər Əliyev epoxası. Heydər Əliyev böyük tarixi şəxsiyyətdir. Şəxsiyyət haqqında söz deməyin məsuliyyətini də anlamaq, dərk etmək lazımdır. Çünki, bu böyük insan barədə ayrıca məqalə və ya kitab yazanacan onun həyatı, fəaliyyəti, şəxsiyyətinin görünən və görünməyən dərinlikləri, zəmanəsinin ictimai–siyasi əksliklərinin ən incə məqamları detallarınacan öyrənilməlidir. Haqqında yazılan əsərin səviyyəsi heç olmasa, özünə yaxın səviyyədə olmalıdır. Heydər Əliyev fenomeninin və epoxasının bəzi məqamları, xüsusilə 80–cı illərin sonu 90–cı illərin əvvəlində şəxsiyyətə qarşı təxribatlar "proqramı" həyata keçiriləndə onun müdrikliyi, dözümü, ləyaqəti, prinsipiallığı, əqidəsi, amalı göz önündə idi. Bu danılmaz həqiqəti onu sevənlər də, sevməyənlər də, onun tərəfdarları da, ona qarşı olanlar da təsdiq etməyə bilməz. Bu gün dünya miqyasında tanınmış siyasi xadim olan Heydər Əliyev Azərbaycanın geniş siyasi meydanına 1969–cu ildə çıxdı. Doğrudur, bu tarixdən neçə illər qabaq da Heydər Əliyev təhlükəsizlik xidmətlərində məsul vəzifələrdə çalışmış və o dövrün yazılmamış qanunlarına uyğun olmayan bir şəkildə Azərbaycanın Dövlət Təhlükəszilik Komitəsinin sədri də təyin olunmuşdur. Bu o dövr üçün ona görə uyğun deyildi ki, adətən müttəfiq respublikalarda bu vəzifəni yerli millətin nümayəndəsi deyil, başqa yerlərdən göndərilmiş, əsasən rus kadrlar tuturdu. DTK keçmiş rejimin ən qapalı idarələrindən biri idi və onun nəinki işçilərini, rəhbərlərini belə ictimaiyyət çox vaxt üzdən də tanımırdı. Yeri gəlmişkən, Heydər Əliyevin bu cəhətdən də məharətlə istifadə etdiyini yada salmaq istəyirəm. Mərkəzi Komitənin I katibi seçildikdən sonra ilk vaxtlar çox adamın üzdən tanımadığı Heydər Əliyev "Şah Abbas sayağı" bazarları, dükanları gəzir, qanunsuzluqları, əli əyrilikləri, pozuntuları özü öz gözləriylə əyani müşahidə edir və yerindəcə müqəssirin cəzasını verirdi. Və belə faktlar da əhalidə yeni ədalətli rəhbərin iş başına gəlməsi və hər cür ədalətsizliklərin kökünü kəsəcəyi haqqında söz–söhbətlərin geniş yayılmasına səbəb olurdu. Bu üsul təbii ki, ən qısa bir müddətdə davam edə bilərdi, çünki, tezliklə respublikanın yeni rəhbərini hamı üzdən də tanımağa başladı və Heydər Əliyev qanun pozuntuları ilə mübarizəni başqa, daha geniş miqyaslarda davam etdirdi. Bu mübarizənin bütün mərhələləri, uğurları və uğursuzluqları gözlərim qarşısından keçib (1, s. 4–13).

Heydər Əliyevin ölkə rəhbərliyinə gəlişi Azərbaycan tarixində yeni mərhələnin başlanğıcına çevrildi. Təhlükəsizlik strukturlarında görülən faydalı işlər respublika miqyasında davam etdirildi. Masştablı fəaliyyət iki tərəfi əhatə edirdi: tələb olunan işlərin görülməsi və lazımlı işlərin görülməsi. Əslində yaxın tariximizə nəzər salanda etiraf etmək zəruridir ki, tələb olunan işlər görüləndə də lazı-

mi işlərin bu və ya digər dərəcədə gerçəkləşdirilməsinə cəhdlər göstərilirdi. Ən vacibi isə əksər hallarda birinci tərəfin ikinci tərəfə tabe etdirilməsi idi. Nəticədə Azərbaycan artıq mümkün ola biləcək zərbələrdən etibarlı şəkildə qorunmaqla yanaşı ilk növbədə dövlətçilik iqtisadi, sosial, siyasi, hərbi, elmi–mədəni sahələrdə əsaslı uğurlar qazandı. Milli şüurun gücləndirilməsi, milli ideyanın qeyri–rəsmi şəkildə formalaşaraq əqidə və inama çevrilməsində həlledici rola malik amillərin inkişafına rəvac verilməsi 1970–80–cı illərin əvvəllərinin ən böyük nəaliyyəti və qələbəsi idi. Azərbaycançılığın, türkçülüyün şüurlara yeridilməsinə, milli azadlıq və müstəqillik uğrunda mübarizə inamının bədii ədəbiyyatda, incəsənət və mədəniyyət nümunələrində, elmi əsərlərdə təbliğinə münbit şərait yaradırdı. Azərbaycan xalqı Azadlıq meydanına birdən–birə və təsadüfən çıxmamışdı. Xalq buna mənən, ruhən, əqidəcə artıq hazır idi. Tarixi qələbəyə hazırlıq 1970–ci illərdən başlamışdı. Tarix qələbələrin və məğlubiyyətlərin, qanlı–qadalı müharibələrin salnaməsidir. Salnamənin yazılması üçün tarix yaradılmalıdır. Dövlət rəhbəri olmaq vəzifədir, liderlik isə taledir (2, s. 5–6).

Milli və siyasi liderlik. Ümumiyyətlə, siyasi lider anlayışının müxtəlif aspektləri mövcuddur. Bura adi siyasi liderlik, milli liderlik, Ümummilli liderlik və digər anlamlar daxildir. Mahiyyətcə siyasi liderliyin hər bir növü olduqca çətin fəaliyyətdir. Çağdaş tarixi mərhələdə müstəqil dövlət quruculuğu prosesi kontekstində isə milli lider, ümummilli lider anlayışları özəl fəlsəfi, siyasi–nəzəri və praktiki məzmun kəsb edir. BMT–nin sənədlərində "millət" anlayışı "vətəndaş dövləti toplumu" anlayışı ilə sinonim kimi işlədilir. Bu, mənada insanlar millət olmağı eyni bir dövlətə mənsubluğu ilə identifikasiya edirlər. Politoloqların fikrincə, bu səbəbdən müasir mərhələdə "dövlət millətçiliyi" anlayışına daha çox fikir verilir və vətəndaşın şüurunda "dövlət–millət" və "milli lider" anlayışları bir–birinin davamı kimi dərk edilir. Dövlətçilik və cəmiyyətin mövcudluğu üçün fundamental sayıla biləcək iki anlayışın millət və lider anlayışlarının vahid bir anlamda birləşməsi çox maraqlı və əhəmiyyətli hadisədir. Bu, o deməkdir ki, müasir mərhələdə müstəqil dövlətdə siyasi liderin milli lider olması mühüm şərtdir. Təcrübə göstərir ki, heç də hər bir siyasi lider milli lider səviyyəsinə yüksələ bilmir. Çünki, milli liderliyin mühüm şərtlərindən biri ölkənin perspektivli və inandırıcı inkişaf kursunu topluma təklif etmək qabiliyyəti ilə sıx bağlıdır. Əgər lider həqiqətən millidirsə, o, dövlət başçısı olaraq dövlət institutlarının fəaliyyətini milli maraqların təmini konstekstində qurur və eyni zamanda, dövlətçiliyin inkişafına, toplumun təhlükəsizliyinin və rifahının təminə xidmət edən siyasət həyata keçirir. Daha zəkavi, uzaqgörən, iradəli və yüksək mənəvi keyfiyyətlərə malik milli liderlər isə ümummilli liderlik səviyyəsinə yüksələ bilirlər. Nümunə kimi Mustafa Kamal Atatürkü, Mahatma Qandini, əfsanəvi Şarl de Qolu, Heydər Əliyevi və başqalarını göstərə bilərik. Eyni zamanda, ümummilli liderliyin fəlsəfi və politoloji meyarlarını tam müəyyən etmək çox çətindir. Hətta XX əsrin görkəmli politoloqlarından olan J.Blondel etiraf etmişdir ki, bu vəzifənin öhdəsindən gəlinməmişdir. Burada vəziyyəti mürəkkəbləşdirən məsələlərdən biri hər bir toplumun özünəməxsus liderlik anlayışının mövcudluğu və həmin əsasda "uğurlu lider kimdir?" sualına birmənalı cavabın olması ilə bağlıdır. Müasir fəlsəfə və politologiyada liderlik haqqında mövcud olan fikirlərin vurğuladığımız qisminin işığında ümümmilli lider Heydər Əliyev və Azərbaycan Prezidenti İlham Əliyevin 20 illik dövlət başçısı və liderlik fəaliyyətinin politoloji dərki olduqca maraqlı və əhəmiyyətli qənaətlər əldə etməyə imkan verir (12, s. 31).

Dövlətçilik tarixi. Bizim dövlətçilik tariximiz, dövlətçilik ənənələrimiz çox qədim və zəngindir. Ona görə də müstəqil dövlətimizi qurarkən biz dünya təcrübəsindən, ümumbəşəri dəyərlərdən bəhrələnməklə yanaşı öz dövlətçilik ənənələrimizə söykənmiş, ondan istifadə etmişik. Bu ənənələr bu gün Azərbaycanda yaşadılır, təkmilləşdirilir və inkişaf etdirilir. Milli dövlətçiliyimizin inkişafı və möhkəmlənməsində Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur (4, s. 1–14).

Xalqımızın milli iftixarı, Ulu Öndər Heydər Əliyev milli birliyimizin zirvəsi və simvolu, dövrümüzün ən böyük azərbaycanlısı kimi dövlətimizin möhkəmlənməsində, vətəndaşların milli–dövlətçilik ideologiyası ətrafında birləşməsində müstəsna rol oynayan, xalqı arxasınca aparmağa qadir güclü siyasi sima idi. O, hər bir azərbaycanlını da məhz bu zirvədə, dünyanın hansı guşəsində yaşamasından asılı olamayaraq, özü kimi vətənpərvər görmək istəyirdi. Ulu Öndər Azərbaycanın ən ağır günlərində, xüsusilə, təhlükəli 1993–cü ildə xalqına və milli birliyə güvənmişdi. Uğurlarının, bütün siyasi gücünün səbəbini bu monotonluqda gördüyünü, demokratik inkişafın məhz bu şəkildə mümkünlüyünü qeyd edirdi. O, gələcəyimizə əmanət qoyduğu azərbaycançılıq ideologiyasının kökündə

duran milli birliyin məhz mənəviyyatdan bəhrələndiyini, xalqı həmişə mənəviyyat birləşdirir ifadəsinin müəllifi idi. Bütün hallarda tarixə istinad edən Heydər Əlirza oğlu çox gözəl bilirdi ki, xalqın, millətin, nicatı onun imanıdır. Türk şairi Fazil Hüsnü Dağlarca demişkən, uğrunda baş qoymağa inam, iman gərəkdir. Vaxtilə Nəriman Nərimanov yazırdı: ”Bir millət özünü tanımaz isə, özü ilə qeyrisinin fərqini düşünməyə qadir olmaz isə, xüsusi məsləkin dalınca yeriş edə bilməz. Bu yolla yeriş etməz isə ümum müqəddəs məsləkə nə olmağını da düşünməz”. “Ümumi müqəddəs məqsədin” milli ideologiyanın ilkin işlək bazasını yaratmaq üçün Heydər Əlirza oğlu əzilmiş hisslərin bərpasına başladı. O, xalqı özünə, keçmişinə, yaddaşına qaytardı, sabahına nikbinliklə baxmaq qətiyyəti verdi. Heydər Əliyevin milli siyasət doktrinasında vətənçilik iki aspekti əhatə edirdi: birincisi, şovinizmə varmağa yol vermədən hər bir azərbaycanlının alovlu vətənpərvərə çevrilməsinə nail olmaq; ikincisi, xalqın vətəni şüurlu sevməsinə, daha doğrusu, tanıyaraq sevməsinə və Azərbaycanın dünyada tanınmasına nail olmaq (5, s. 10–12).

Hər bir xalqın tarixi inkişafına nəzər salsaq görərik ki, böyük uğurların əldə olunmasında, dünyada gedən intibah prosesində ölkələrin qabaqcıl pillələrdə qərarlaşmasında liderlərin rolu həlledicidir. 15 oktyabr 2003–cü ildə Azərbaycan xalqı İlham Əliyevi Prezident seçməklə Heydər Əliyevin siyasi kursuna səs verdi. Azərbaycan xalqı sülhün, əmin–amanlığın, tərəqqinin, inkişafın, quruculuğun və sabitliyin tərəfində olduğunu nümayiş etdirdi, ölkədə bu siyasətə alternativin olmadığını göstərdi. İlham Əliyev təkcə əsl varis olduğunu sübut etmədi. Eyni zamanda, ona qədər başlanan yolun davamı kimi ölkəni daha da inkişaf etdirdi, onun nüfuzunu artırdı, sabitliyi möhkəmləndirdi. Dövlət başçımız İlham Əliyev hər dəfə Prezident seçilməklə güclü xalq, güclü dövlət, güclü lider vəhdəti müstəqil və müasir Azərbaycanın qüdrətinə çevrildi. 2003–cü il 15 oktyabr prezident seçkilərindən start götürən və zamanın axarında öz layiqli yerini tutan Azərbaycan dövləti bundan sonra da möhtərəm Prezidentimiz İlham Əliyevin uzaqgörən siyasəti və müdrik rəhbərliyi sayəsində inkişaf edəcək və çiçəklənəcəkdir.

Zəfər təntənəsi. Xalqımızın Ümummilli lideri, bütün dövrlərin ən böyük azərbaycanlısı Heydər Əliyevin müəyyən etdiyi mütərəqqi inkişaf strategiyasını və siyasi xəttini uğurla davam etdirən möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev böyük xilaskarlıq missiyasını qətiyyətlə yerinə yetirməklə Vətən müharibəsində Azərbaycanın ərazi bütövlüyünün, tarixi ədalətin bərpasına nail olub. Xalqımızın qəhrəmanlıq səlnaməsini yenidən yazan dövlət başçısının rəhbərliyi ilə müasir texnologiyalara yiyələnən, son nəsil silahlara sahib olan rəşadətli Ordumuz 44 günlük Vətən müharibəsi zamanı düşməni diz çökdürüb, torpaqlarımızı işğalçılardan təmizləyib, 200 ildən bəri davam edən mifi və illüziyalarını tamamilə məhv edib. "Qarabağ Azərbaycandır!“ həqiqətinin parlaq təzahürü olan və bu ilin sentyabr ayında 24 saatdan az müddətdə davam edən lokal xarakterli antiterror tədbirlərində Qarabağda yerləşən separatçıların başı əzildi, Ermənistanın torpaqlarımızdakı qeyri–qanuni hərbi birləşmələri məhv edildi. Bu qələbə suverenliyimizin tam bərpa edilməsi ilə tarixə əbədi qızıl hərflərlə daxil oldu (11, s. 32).

Nəticə. Ulu Öndərimizin, dünyanın böyük azərbaycanlısı, “Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam” kəlmələri, ilə Azərbaycan və azərbaycanlı ifadələrinə yeni məzmun, yeni çalar verdi. Bir azərbaycanlı kimi məhz milli birliyimizi qorumaqla, müqəddəs azərbaycançılıq ideologiyası ətrafında birləşməklə Ümummilli Liderimiz, xalqımızın milli iftixarı Heydər Əliyevin əmanəti olan demokartik, suveren Azərbaycan dövlətini Müzəffər Ali Baş Komandan, Cənab Prezident İlham Əliyevin ətrafında sıx birləşərək yaşadacağımıza, onu özümüzdən sonra gələcək nəsillərə inkişaf etmiş, möhkəmlənmiş, qüdrətli bir dövlət kimi ötürə biləcəyik. Bu tədqiqatda əldə edilən nəticələr gələcək tədqiqatların yeni istiqamətlərinə, ictimai və siyasi sahələrdə yeni yanaşmaların formalaşmasına zəmin yaradır.

ƏDƏBİYYAT

1. H.Orucov. Heydər Əliyev işığı–ipək yolu. Bakı, Azərnəşr, 2000, 242 s.
2. H.Orucov. Heydər Əliyev və Azərbaycanda milli siyasət. Bakı, Azərnəşr, 2001, 340 s.
3. B.Budaqov. Heydər Əliyev fenomeni. II nəşr. Bakı, Azərnəşr, 2002, 136 s.
4. N.Aqaşova, S.Abdullayev. Heydər Əliyev və Azərbaycan. I hissə. Bakı, Azərnəşr, 2006, 224 s.

5. İ.Həbibbəyli. Heydər Əliyevin siyasi irsi və azərbaycançılıq (II kitab). Bakı, Azərnəşr, 2020, 448s.
6. M.Mikayılov. Azərbaycanın özü qədər əbədi. Bakı, Azərnəşr, 2023, 240 s.
7. N.Məmmədli. Heydər Əliyevin siyasi dilinin lüğəti. Bakı, Azərnəşr, 2023, 272 s.
8. O.Əsədov. Heydər Əliyev müasir Azərbaycan parlamentinin banisidir. Bakı, Azərnəşr, 2008, 495s.
9. İ.Məmmədzadə, S.Həsənov. Heydər Əliyev və İlham Əliyev: Güclü dövlət, qələbənin fəlsəfəsi, böyük qayıdış. Bakı, Azərnəşr, 2023, 268 s.
10. E.Axundova. Şəxsiyyət və zaman. Bakı, Azərnəşr, 2007, 352 s.
11. B.Salayev. Ulu Öndər. Bakı, Azərnəşr, 2023, 160 s.
12. İ.Hacıyev. Heydər Əliyev: həyatı və siyasi fəaliyyəti. Naxçıvan, Əcəmi, 2023, 176 s.
13. M.Mikayılov. Möhtəşəm zəfərin müəllifi. Bakı, Azərnəşr, 2022, 192 s.

ДЖАМИЛ КУЛИЕВ
Доктор философии по истории,
Ученый секретарь Ленкоранского регионального научного центра НАНА,
Институт Истории и Этнологии имени А.А. Бакиханова НАНА

НАЦИОНАЛЬНОЕ СПАСЕНИЕ ПРАКТИЧЕСКОЕ ВОЗВРАЩЕНИЕ

В статье говорится о защите нашего национального единства, священной идеологии азербайджанства и достойной передаче грядущим поколениям демократического Азербайджанского государства. В тексте отражены некоторые памятные периоды новейшей истории нашего народа, вписавшие славные страницы в нашу национальную государственность и политическую историю: 14 июля 1969 года, 21 ноября 1992 года, 15 июня 1993 года, с некоторыми соображениями в следующем виде.

1) День прихода к власти в Азербайджане гениальной личности, феноменального государственного деятеля, мудрого политика, общенационального лидера Гейдара Алиева;

2) День создания под руководством уважаемого Гейдара Алиева партии «Ени Азербайджан», провозгласившей своей высшей целью защиту независимого Азербайджанского государства от распада, от страха ухода с политической сцены, от опасности потери независимости, обеспечение вечности, нерушимости и необратимости государственной независимости;

3) Возвращение Гейдара Алиева – ревностного сына нашего народа, пламенного патриота, великого лидера, пришедшего к власти в Азербайджане по настойчивому требованию народа с миссией спасения и национального освобождения, гарантией светлого будущего независимого Азербайджанского государства и национальной государственности, золотыми буквами отмечено в нашей новейшей национальной истории как День национального спасения.

Ключевые слова: Гейдар Алиев, личность, национальный, лидер, государственность, азербайджанский.

JAMIL KULIEV
Doctor of Philosophy in History,
Scientific Secretary of the Lankaran Regional Scientific Center of ANAS,
İnstitute of History and Ethnology named after A.A. Bakikhanov of ANAS

NATIONAL SALVATION PRACTICAL RETURN

The article mentions the defense of our national unity, the sacred ideology of Azerbaijaniism, and the worthy transfer of the democratic Azerbaijani state to future generations. The text reflects some of the memorable periods in the contemporary history of our people, which have written glorious pages in our national statehood and political history: July 14, 1969, November 21, 1992, June 15, 1993, with some considerations in the following form.

1) The day when the history of our native Azerbaijan, the genius personality, phenomenal statesman, wise politician, the National Leader Heydar Aliyev, came to power in Azerbaijan;

2) The day when the New Azerbaijan Party, which declared its supreme goal to protect the independent Azerbaijani state from disintegration, from the fear of withdrawal from the political scene, from the danger of losing its independence, and to ensure the eternity, inviolability, and irreversibility of state independence, was established under the leadership of the esteemed Heydar Aliyev;

3) The return of Heydar Aliyev, a zealous son of our people, ardent patriot, and great leader, who came to power in Azerbaijan at the insistent demand of the people, with a mission of salvation and national liberation, and the guarantee of a bright tomorrow for the independent Azerbaijani state and national statehood, has been marked in our contemporary national history in golden letters as the National Salvation Day.

Keywords: Heydar Aliyev, personality, national, the leader, statehood, azerbaijani.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 05 noyabr 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 30 noyabr 2025-ci il.
Rəyçilər: t.e.d. Hacı Həsənov, t.e.d. İbrahim Zeynalov.